# Ağdam – doğma şəhərim, səni dirçəldəcəyik!

**Mən Ağdamda doğulmuşam, uşaqlığım, gəncliyim o şəhərdə keçib. Orada təhsil almışam. Ağdam Qarabağın gözü idi. Bu şəhər işğaldan əvvəl ildən-ilə gözəlləşir, yenilənirdi. Şəhərdə mədəniyyət, təhsil sürətlə inkişaf edirdi. İşğaldan sonra iki dəfə orada olmuşam. Haqlı olaraq, Ağdamı "ruhların şəhəri" adlandırırlar. Təsəvvür edə bilməzsiniz ki, insan öz doğma yurdunu belə bərbad vəziyyətdə görəndə hansı ağrılı hissləri keçirə bilər.**

Amma, bu günlər mən də minlərlə ağdamlı kimi sevinc içərisindəyəm. Ağdamın işğaldan azad olunduğunu görəndə sevincimin həddi-hüdudu olmadı. Hər parçası bir tarix olan daşına, kəsəyinə əl vurmaq, illərdir vəhşi ermənilər tərəfindən yerlə-yeksan edilən tarixi, dini abidələrimizi ziyarət etmək və sair anları yaşamaq nə qədər çətin olsa da, böyük xoşbəxtlikdir. Bu sevinci bizə yaşadan möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarıq.

Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bu əminliyi ifadə edirdi ki, gün gələcək bütün işğal altında olan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Həmin gün gəldi. Azərbaycan Ordusu xalqımızın



vaxtilə itirilmiş qürurunu özünə qaytardı, 30 ilə yaxın dövrün acısına, nisgilinə son qoydu, torpaqlarımızı tarixi sahibinə qaytardı.

Cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə ardıcıl səfərləri, hər dəfə diplomatik korpus nümayəndələrini, yerli və xarici jurnalistləri bu torpaqları ziyarət etməyə çağırması erməni vəhşiliyinin ağır nəticələrini gözlə görüb dünyaya çatdırmaq mesajıdır.

Bu dəfə isə cənab Prezident Pespublika Gününü bayram etdiyimiz anlarda Ağdamda idi və böyük qürur hissi ilə mənim doğma şəhərimin dağılmış ərazisində düşmənə mesajlar verirdi. Ən xoş olan anlardan biri cənab Prezidentin şəhərin bərpasının təməl daşının qoyulması mərasimində iştirak etməsi idi. Bəli, Ağdam şəhəri yenidən öz doğma gözəlliyini özünə qaraytaracaq.

Cənab Prezident Ağdam ictimaiyyəti ilə görüşündə dediyi bu sözlərə diqqət çəkmək istərdim: "İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq".

Bəli, cənab Prezident, biz yaxşı bilirik ki, bu qələbə Sizin müdrik siyasətiniz nəticəsində mümkün olmuşdur. Bu möhtəşəm qələbəyə görə bütün ağdamlılar Sizə dərin minnətdarlıqlarını bildirirlər.

Mən Birinci Qarabağ müharibəsi illərində polis sistemində müxtəlif vəzifələrdə çalışmışam. Minlərlə qarabağlı kimi o ağrılı günlərin şahidiyəm. Ancaq Qarabağı xilas edə bilmədik. Siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə hər şeyi alt-üst elədi.

Və bu gün biz yenidən doğma torpaqlarımıza qayıdırıq. Bu dəfə Prezidentimizin Ağdama səfəri bu yerlərin həyatında yeni dövrün başlandığından xəbər verir. Dövlət başçımız şəhər 1 saylı məktəbin yeni binasının, Ağdam Sənaye Parkının təməlqoyma mərasimlərində, Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olub. Cənab Prezidentin Ağdamdakı çıxışından bir məqamı da xatırlatmaq istərdim: "Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim qabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq".

Cənab Prezident, Siz haradasınızsa, orada quruculuq, inkişaf var. Əminik ki, Ağdam Sizin rəhbərliyinizlə yenidən qurulacaq və bu şəhər əvvəlkindən də gözəl olacaq.

***Sadir MƏMMƏDOV,***
***ehtiyatda olan polkovnik,***
***Bakı Slavyan Universitetinin***
***dosenti, hüquq elmləri üzrə***
***fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 1 iyun.- S.3.